# İmran Qasımovun yaradıcılığı və müasir dövr

**Dilarə Adilova**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: adilova.60@bk.ru

**Annotasiya.** Məqalə İmran Qasımovun yaradıclığına həsr olunmuşdur. Yazıçının irsi əvvəlindən sonuna qədər nəzərdən keçirilmiş, qələmə aldığı mövzular, film ssenariləri araşdırılmışdır. İ.Qasımovun dramaturji fəaliyyəti də kənarda qalmamışdır. Müntəzəm müraciət etdiyi sahələrdən birincisi – Xəzər, neft, dəniz buruqları, neftçilərin əmək fəaliyyəti və məişəti hesab edilir. Müharibə mövzusunda yazdığı əsərlər də məqalə çərçivəsində öz yerini almışdır. İ.Qasımovun ədəbiyyat tariximizdə yerinə toxunulmuş, bədii publisistikası və ictimai fəaliyyəti işıqlandırılmışdır.
**Açar sözlər:** yazıçı, ssenari, neft, pyes, film

**Məqalə tarixçəsi:** göndərilib – 11.09.2022; qəbul edilib – 19.09.2022

# Creative work of Imran Gasimov and modern period

**Dilara Adilova**
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: adilova.60@bk.ru

**Abstract.** The article was dedicated to Imran Gasimov’s creation. The heritage of the novelist was looked through wholly, written subjects were investigated according to the film scenarios. I.Gasimov’s dramatic activity has also taken place here. It’s considered that he constantly addressed to the main themes such as Khazar, oil, sea drillings, labor activity of oil workers and their lifes. The novels written in war theme also took place in the article. I.Gasimov’s role in the history of our literature, his artistic journalism and sosial activity were illuminated.
**Keywords:** novelist, scenario, oil, play, film

**Article history:** received − 11.09.2022; accepted − 19.09.2022

## Giriş / *Introduction*

Bədii söz plakat deyil, rəngarəng rəsm əsəridir. Emosional, intellektual təsir yolları mürəkkəb və çoxcəhətlidir.

Azərbaycan sovet ədəbiyyatının görkəmli nümayəndələrindən olan İmran Qasımov neçə nəsil ziyalı ailənin nümayəndəsi idi. Mənsub olduğu ailədən başqa, mühiti, yaxın ətrafı onun əsl ziyalı, daha sonra yazıçı kimi yetişməsində mühüm rol oynamışdır. Yazıçı özü tərcümeyihalının bu xoş məqamı barədə yazmış, şəxsiyyət, sənətkar kimi formalaşmasında ailəsinin rolunu dəfələrlə qeyd etmişdir.

İmran Qasımov 1967-1981-ci illər arasında olan müddətdə Azərbaycan Yazıçılar İttifaqına rəhbərlik etmiş, «Литературный Азербайджан» jurnalının baş redaktoru olmuşdur. Onun təşkilatçılıq bacarığından, rəhbərliyi dövründə yaratdığı müsbət ab-havadan indiyə qədər danışılır. Azərbaycan SSR Xalq yazıçısı fəxri adını daşıyan ədib, həm də Respublika Dövlət Mükafatı laureatı adına layiq görülmüş, dövrünün ali

«Lenin», «Qırmızı əmək bayrağı» və «Şərəf nişanı» ordenləri ilə təltif edilmişdir. İmran Qasımov SSRİ Ali Sovetinin IX-X çağırış üzrə deputatı olmuşdur.

**Əsas hissə / *Main Part***

İmran Qasımov yaradıcılığa erkən – məktəb illərindən başlayır və ədəbiyyata olan bu sevgi onu həyatının sonuna qədər müşayiət edir. Çox yazır, ictimai işlərin imkansızlığından «heç olmasa günə bir sətir» devizi ilə işləyirdi. Bədii yaradıcılığa hekayə ilə qədəm qoyan gələcək ədib daha sonra fəaliyyətini, əsasən, pyes və ssenari janrlarında davam etdirir. İmran Qasımov hər üç sahədə böyük uğur əldə etmiş, keçmiş SSRİ-nin ədəbi və mədəni mühitində kifayət qədər tanınmışdır. İlk böyük müvəffəqiyyəti 1937-ci ildə yazdığı «Yer altından gələn səslər» ssenarisi hesab edilir. Mövzusu neft, fəhlə sinfinin həyat və məişəti olan bu əsər İmran Qasımovun sonrakı yaradıcılığını istiqamətləndirir, onun ideyasını, üslubunu, ruhunu müəyyən edib sevimli mövzusuna çevrilir. Əsər həm də M.Əzizbəyov adına Dram Teatrında tamaşaya qoyulur. Əslində, neft, Bakı fəhləsinin həyatı İ.Qasımovdan əvvəl də bizim ədəbiyyatda və kinemotoqrafiyada geniş işıqlandırılmışdı. Azərbaycan neftin tarixi vətəni olduğundan, «qara qızıl» inersiya ilə kultlaşdırılır, ədəbiyyat, mədəniyyət kimi sahələrə «transfer» edirdi. Qələm əhli bu mövzuda qiymətli əsərlər yazmış, bu gün də əhəmiyyətini itirməyən sənət nümunələri yaratmışdılar. Mir Cəlalın «Təzə şəhər», Mehdi Hüseynin «Abşeron», «Qara daşlar» romanlarında, Lətif Səfərovun «Bəxtiyar» filmində neftçilərin ağır və şərəfli əməyi öz əksini tapmışdır. İmran Qasımov da bu mövzuya öz layiqli töhfəsini vermiş, milli sərvətimiz olan neft, Bakı neftçiləri haqqında silsilə əsərlər yazmışdır. Onun qələmində hamının tanıdığı qara rəngli yağlı mineral – yeni rəng və çalarları ilə parıldamağa başlamışdır.

«İllər keçir» romanındakı hadisələr XX əsrin 1920-1930-cu illərində Abşeron yarımadasında baş verir. Əsərin əsas qəhrəmanları neft mədənlərində qazma işləri üzrə peşəkarlar – usta Mərdan və Vasili Lukiç Bobrovdur. Onları bir-birinə uzun illərin dostluğu, yoldaşlığı və işlərinə böyük məhəbbət bağlayır. Romanda Abşeron neft mədənlərində çalışan digər sadə əməkçilərinin yaddaqalan obrazları yaradılmışdır. Akademik Bəkir Nəbiyev çox haqlı olaraq İ.Qasımovun əsərlərini «müasir Bakı fəhləsi, onun nəsillərinin estafeti haqqında dramatik salnamə» hesab edirdi. «Maraqlıdır ki, yazıçının yaratdığı qəhrəmanlar ənənəvi «staxanovçular», o zaman dəbdə olan bir beşillikdə iki beşillik yerinə yetirən əmək qabaqcılları deyildi, sadəcə, öz vəzifə borcunu ləyaqətlə yerinə yetirən sadə zəhmətkeşlər idi» [10]. Xalqlar dostluğu mövzusu İ.Qasımovun bütün yaradıcılığında tərənnüm edilir. Ən başlıcası, oxucu bu dostluğun səmimiliyinə, qarşılıqlı olduğuna inanır. «Bakının qocaman fəhləsinin dəfn mərasiminə gələn adamların sayı-hesabı yox idi. Bu ağır dərd onun yaxın adamlarının belini bükmüşdüsə də, mərasimin kütləvi şəkil alması hamını heyrətə gətirmişdi... Bu balacaboy, batıq sinəli qoca məşhur Bakı fəhləsi idi... Qəbrin üstünü torpaq və güllərlə örtdülər» [5, s.185].

İ.Qasımov dəniz adlanan stixiyaya yaradıcılığı boyu sadiq qalmış, dənizi və onun fatehlərini vəsf etməkdən yorulmamışdır. Bu güc onu «səhnə arxasından» idarə etmiş, sənətində mühüm rol oynamışdır. Yazıçı özü bu barədə deyirdi ki, mən dənizdə doğulub, dənizdə böyümüşəm və haqqında yazdığım adamlar mənə doğmadırlar... «Cəsur Xəzər neftçilərinin həyatı, sevgisi, düşüncələri... onun ürəyində özünə yer tutmuşdu» [8]. O, «Xəzər dənizində şəfəq», «Xəzər nefti», «Mən Xəzər dənizçisiyəm», «Xəzərdə möcüzə» filmlərinin ssenari müəllifidir. Xəzər, Xəzər, yenə də Xəzər... Onu bəzən akvarium da adlandırırlar. Qapalı olduğu üçün. Öz gücünü hara verəcəyini bilməyən depressiv su hövzəsi də deyirlər. Lakin kim ha tərəfdən baxır və necə görür... İndi ona bir də İmran Qasımovun gözləri ilə baxaq! Xəzər mövzusu bitmir, qurtarmır, isim kimi hallanır, gedib yenə qayıdılır, dönə-dönə müraciət edilir. Xəzər dənizi İ.Qasımov üçün əbədi ilham mənbəyi, sevincdə həmsöhbəti, kədərdə üz tutduğu məhrəmi, təsəlli yeri idi. «Xəzər dənizçiləri haqqında dastan», «Dənizi fəth edənlər» filmlərinin sse-

narisini həmkarı R.L.Karmenlə birgə yazmışdır. Hər iki film dünya kinematoqrafının qızıl fonduna daxil edilmişdir. Bu əsərlər həm də bu günümüzə bir mesajdır. «Neft Azərbaycanın hər bir vətəndaşının həyatında müstəsna rola malikdir, Sovet İttifaqı dağılandan sonra Azərbaycan Xəzərdə ona məxsus ərazinin üzərindəki hüquqlarını mətin iradə ilə qorudu, dünyaya tanıtdı» [6] və iqtisadi cəhətdən möhkəmlənib Qarabağımızı qaytarmaqda müstəsna rol oynadı. Biz onun sayəsində güclü və qalib olduq. Əsrin kontraktı – «Azəri-Çıraq-Günəşli»nin imzalandığı 20 sentyabr tarixi Azərbaycan neftçilərinin peşə bayramı günü kimi qeyd olunur (AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu bu müqavilənin 20 illiyi münasibətilə «Neft faktoru ədəbiyyat və incəsənətdə» mövzusunda elmi konfrans da keçirmişdir).

R.Karmen «No, Pasaran!» kitabında yazırdı ki, məqsədimiz neftin dənizdən necə hasil olunduğunu göstərmək deyildi... Qəhrəman əmək kollektivini ədəbiyyata, sənətə gətirmək, uydurulmuş yox, həyatdan götürülmüş obrazların xarakterini açmaq istəyi idi. Onlar öz qəhrəmanlarını – cəsur, güclü, iradəli, mətin insanları sevirdilər. Bu kinodilogiya sovet dönəminin ən yüksək mükafatı olan Lenin mükafatına layiq görülmüşdü. İ.Qasımov qələm dostunun ölümündən sonra onun haqqında «Karmenin ürəyi» adlı həzin oçerk yazır, əsrin bir çərəyini bölüşdüyü dostunun xatirəsini belə yad edir.

Bütünlükdə İmran Qasımov müstəqil və müştərək 45 filmə ssenari yazmışdır. «Onun böyük ürəyi», «Bizim küçə», «İnsan məskən salır» kimi ekran əsərləri kino-dramaturqun filmoqrafiyasında xüsusilə uğurlu hesab edilir. Onun üç ən məşhur filmi müharibə mövzusundadır: «Onun böyük ürəyi», «Bizim küçə», «Uzaq sahillərdə». Müharibəsonrası bu mövzuda filmlərin çəkilməsinə dövlət tərəfindən start verilmişdi. Müharibə haqqında film «janr»ı da elə o zamandan formalaşdı və SSRİ dağılana qədər davam etdi. «Bizim küçə» lirik-psixoloji dram olub II Dünya müharibəsində partlayış nəticəsində anasından ayrı düşmüş Sara adlı azərbaycanlı qız haqqındadır. İ.Qasımovun Mehdi sevgisi o qədər böyük idi ki, epizodik də olsa, öz sevimli Mixaylosunu «Bizim küçə»yə gətirib həmin vaxt Triyestdə ofisiant işləyən Sara ilə görüşdürmüşdü. Sara qürbətdə məruz qaldığı çətin, hətta çıxılmaz vəziyyətlərdə özünü, şəxsiyyətini, şərəfini qoruya bilir, axırda da vətənə mərd, alnıaçıq qayıdır. Və onların küçəsində əsl bayram olur. Filmi seyr edərkən özünü tamaşaçı qismində deyil, hadisələrin tam mərkəzində hiss edirsən ki, bu da ideya ilə sənətkarlıq vəhdətinin bariz nümunəsidir. Müharibənin dəhşətlərindən ayrılmaq istəyən, ılıqlaşma dövrünə qədəm qoyan sovet adamı ekranda yalnız real hadisələri görmək istəmirdi, həm də əylənmək, gələcəyə köklənmək arzusunda idi. «Bizim küçə»nin süjet dinamikasının fərqliliyi tamaşaçıya bu ovqatı verirdi. İ.Qasımovun mövzunu təqdimetmə istedadını da xüsusi qeyd etmək lazımdır. İ.Qasımovun bu kinopovesti ittifaq miqyasında müharibə tematikasında yazılmış ən gözəl film ssenarilərindən biridir.

«Onun böyük ürəyi» kinopovesti üç dövrü – müharibədən əvvəlki, ll Dünya müharibəsi və müharibədən sonrakı dinc quruculuq illərini əhatə edir» [2]. Bu ümumi sinopsisdən əlavə, filmin süjet xəttini Səmayənin asan olmayan taleyi təşkil edir. Lakin sonda həyatın bütün sınaqlarından üzüağ çıxır, təkbaşına Lalə kimi qız böyüdüb xoşbəxtliyini analıqda və işində tapır. İ.Qasımov öz millətinin qadınını belə görür, onun ekran aqibətini qalib və qürurlu sona çatdırırdı. Əsərdə Oqtay, Rəcəb, Mənsur kimi bir-birindən fərqli üç kişi obrazı da verilmişdir. Filmdə hər birinin öz yolu olan bu üç insanın Səmayənin həyatında və qəlbində danılmaz yeri olduğu da aşkar görünür.

Azərbaycan Dövlət Dram Teatrında tamaşaya qoyulan «Arzu» pyesi İ.Qasımovun ilk səhnə işi kimi maraq doğurur və imzasını tanıdır. Bu uğurlu əsərin ardınca, «Yeni üfüq» pyesi yaranır. Əsərdə gənc mütəxəssisin ümumi işə ziyan vuran mühafizəkar və karyeristlərlə mübarizəsi əks olunur. Akademik Məmməd Arif İmran Qasımovun 1970-ci illərin əvvəllərində əxlaqi-etik mövzularda yazdığı «İnsan məskən salır», «Ömür elə qısadır ki...», «Sən nə üçün yaşayırsan?», «Nağıl başlananda», «Dairəni genişləndirin» pyeslərini Azərbaycan dramaturgiyasının qazandığı görkəmli nailiyyətlər adlandırmışdır. «Sən nə üçün yaşayırsan?» pyesində mənəviyyat problemləri önə çəkilir. Kinodramaturqun ən şanslı əsərlərindən olan «İnsan

məskən salır» əsəri əsasında həm «Azərbaycanfilm»də kino çəkilmiş, həm də Moskvanın məşhur «Malı» Teatrında, Qazaxıstan dram teatrında pyes oynanılmışdı. Hər iki təşəbbüs özünü doğrultmuş, böyük uğur qazanmışdı. Neft daşlarında neftçi işləyən Cavad qasırğada estakadanın aşması nəticəsində həlak olur. Bir müddət sonra briqadanı Ramiz adlı gənc mühəndis təhvil alır. Hamının sevimlisi olan usta Cavaddan sonra kollektiv yeni briqadiri qəbul etmir, ona Cavadın yerinə gələn kimi baxır. Ramizin qarşısında duran əsas problem briqadanın hörmətini qazanmaq, etimadı doğrultmaq idi. Öz işinin ustası olması, səmimiyyəti ona kollektivin nəbzini tutub münasibəti öz xeyrinə dəyişməkdə kömək edir.

«Ömür elə qısadır ki…» romantik komediyası sovet dövlətinin intibah dövründə yazılmış və İ.Qasımovun başqa əsərləri kimi, o da xoşbəxt taleli olmuşdur. Respublikamızın və SSRİnin aparıcı teatrlarında tamaşaya qoyulmuş bu pyes ədəbiyyat və teatr tənqidçiləri tərəfindən yüksək qiymətləndirilmişdir. Əsərdə ictimai-etik-mənəvi problemlər qoyulur, sosial davranış normalarına diqqət yetirilir. Pyesdə hadisələr 1970-ci illərdə Bakıda vaqe olur. 150 yaşlı dəmirçi Məmmədəli Ağdamdan 85 yaşlı nəvəsi Hüseynə qonaq gəlir. Dərhal da qocanın ətrafında ajiotaj yaranır. Gənclər arasında «Lermontovun yaşıdı», «Düma-ataya rast gəlib», «Hacı Muradla söhbət edib» kimi təxminetmələr, replikalar səslənir. Kişinin uzunömürlüyü, onun sirri və s. kimi məsələlər ətrafını maraqlandırır, «adam ləzzət çəkir buna qulaq asanda», – deyirlər. Əslində Məmmədəli baba da sensasiyaya həvəslidir, incə yumordan da məhrum deyil. «Niyə uşaqların sayı artmır?» – deyə 65 yaşlı gəlini Balacaya sataşır, həkimlər «ağzıma baxırlar, qoluma əsgi sarıyıb içinə hava vururlar... sabah yatırıb bədənimdən işıq buraxacaqlar» [4, s.59] – kimi söhbətlər edir. Bir sözlə, Məmmədəli kişini hərə bacardığı qədər «tədqiqat»a cəlb etmək istəyir. Əslində, bu uzunömürlüyün sirri çox sadədir, «günün doğmağına bax, qarınla deyiş, gül, danış, samovar-samovar çay iç» [4, s.83]. Bir də zəhmətdə, bu sinnidə «dəmir döyməkdə, traktor düzəltməkdə, at nallamaqda», heç kəsə paxıllıq etməməkdə. Bekarçılıq, sosial çərçivələr, şərtiliklər Məmmədəli babaya yaddır, saatla yemək, nəzarətdə olmaq onu xəstəhal edir.

Pyesdə qocaya qarşılıq olaraq 25 yaş civarı gənclər dəstəsi də var: Arif, Nuridə, Esmira, Kamil. Əsərdə qızların da, oğlanların da bir-birilə müqayisədə xarakterləri daha çox açılır, daha qabarıq görünür. Əlbəttə ki, meşşanlıq və şəxsi mənafe hissləri ilə yaşayan, sağlam adamı eksperimentə cəlb edib «qızıl balıq» adlandıran Kamil və Nuridə heç vaxt bizim simpatiyamızı qazana bilməzdilər. İ.Qasımovun tədqiqatçısı, sənətşünas Nikolay Abalkin yazırdı: «Esmira sanki tamaşaçıya deyir: heç vaxt insan haqqında ilk ötəri təsəvvür əsasında mühakimə yürütməyin, ona diqqətlə nəzər yetirin, onu ətraflı öyrənməyə çalışın, məsələ insanın geyimində, görkəmində deyil, məsələ onun ürəyindədir, hansı düşüncələrlə, hansı duyğularla yaşamasındadır» [9]. İ.Qasımovun içindəki insan sevgisi ağ-qara deyil, ona verdiyi əbədi dəyər təbiətin yeddi rəngi ilə süslənmişdir. Bu sevgi sonralar nəinki mane olmur, əksinə, onunla bərabər addımlayıb yaradıcılığının təməl daşına çevrilir. Əsərin ideyası finalda yazıçının özü tərəfindən, əsas qəhrəmanı Arifin dili ilə açılır: «Beşikdən qəbrədək bir yol, yeganə yol açıqdır qarşımızda, bizi fərqləndirən də budur ki, qət edəcəyimiz bu yolu kim necə keçəcək» [4, s.92].

2016-cı ildə İ.Qasımovun xatirəsinə həsr edilən sənədli film «Ömür elə qısadır ki...» adlanıb elə onun öz əsərinin adını daşıyır.

1972-ci ildə İ.Qasımov «Nağıl başlananda» pyesini yazır. «Pyesin əşxası cəmi üç nəfərdən ibarətdir, üçü də konfliktin müsbət qütbündə dayanmışdır» [3, s.9] və əsərdə bu surətlərə müxalif personaj yoxdur. Eyni tələblərlə, lakin məhdud iştirakçı ilə pyes yazmaq çətindir, amma eksperimentlər də mümkündür. «Nağıl başlananda» adı qədər gözəl, kiçik bir pyesdir. Əsər qeyri-müəyyənliyə baxmayaraq, optimist sonluqla başa çatır. Qəhrəmanlar «düzlük, doğruluq yolunda bütün əzablara dözməyə hazırdırlar. Onların sağlam, şüurlu məhəbbətləri də bu əzablara dözür, həyatın sınaqlarından fədakarlıqla çıxır» [11, s.170].

Qırğızıstanın Xalq yazıçısı, çoxsaylı mükafatlar laureatı Çingiz Aytmatov İ.Qasımovun səhnə yaradıcılığını yüksək qiymətləndirmiş,

onu «Azərbaycan teatrının adası», özünün isə «məslək, məfkurə dostu» adlandırmışdır. İ.Qasımovu hər mənada «öz dövrünün vətəndaşı» hesab edərək hər zaman onun «bəşəri ədəbiyyat və incəsənət haqqındakı düşüncələrinə heyranlıqla» yanaşmışdır. «İki qüdrətli sənətkarın qarşılıqlı məktublaşmaları, səmimi münasibəti Azərbaycan – qırğız ədəbi əlaqələrinin inkişafına böyük töhfələr vermişdir» [7, s.267].

Xalq yazıçısı Anar İ.Qasımovun yaradıcılığına yüksək qiymət vermiş, əsərlərində təbliğ etdiyi humanizmi, insan sevgisini xüsusilə vurğulamışdır. Dövrümüzün daha bir Xalq yazıçısı Elçin İ.Qasımov qədər «insanlara kömək edən, onların qulluğunda duran» ikinci bir adam tanımadığını dəfələrlə qeyd etmişdir. İ.Qasımovun əsas «tədqiqat obyekti insandır. İnsanın mənəvi-əxlaqi keyfiyyətləri onun bütün pyeslərinin bədii təhlil predmetini təşkil edir» [3, s.7].

Yazıçının dramaturgiyasının «leytmotivini təşkil edən bir ideya var: insan ləyaqətlə yaşamalıdır. Onun dramaturgiyasında insan amili, onun dərin mündəricəsi əsas konsepsiya kimi götürülür.

«İllər keçir» romanını, «Dəniz cəsurları sevir», «Sən nə üçün yaşayırsan» pyeslərini, «Uzaq sahillərdə» povestini Həsən Seyidbəyli ilə həmmüəllif olaraq işləmişdir. Belə uğurlu tandem nümunələri dünya ədəbiyyatında bəs qədərdir: Qrim qardaşları, Vayner qardaşları, İlf və Petrov, Arkadi və Boris Struqaskilər və s. İmran Qasımov və Həsən Seyidbəyli cütlüyü bu sıranı ən layiqli şəkildə artırır. Bu işin öz çətinlikləri olsa da, onlar bir-birini tamamlayıb təkmilləşdirmiş, üslub, dil və s. fərqi hiss olunmamışdır. Dediklərimizin bariz nümunəsi isə hər ikisinin şah əsəri olan bildiyimiz «Uzaq sahillərdə» povestidir. Bu əsər Azərbaycan xalqının igid oğlu Mehdi Hüseynzadənin İtaliya və Yuqoslaviyada alman-faşistlərinə qarşı apardığı partizan müharibəsinə həsr edilmişdir. Povesti həm mövzu, həm sənətkarlıq xüsusiyyətləri baxımından ədəbi tənqid də, oxucular da yüksək qiymətləndirmiş, əsər görünməmiş əks-səda salmışdır.

İ.Qasımov və H.Seyidbəyli «Uzaq sahillərdə» povesti ilə 26 yaşında həlak olan qəhrəmanın adını əbədiləşdirmiş, əvvəli rəssam, müəllim, sonrası partizan olan Mehdini tanımayana da tanıtmışdılar. Əsər xəfiyyə janrına bənzəyən tərzdə başlayıb, «indi bitər» həyəcanı ilə davam edir və əsl qəhrəmanlıq povesti kimi sona çatır. Povest müxtəlif dillərə tərcümə edilib çap olunduqca müəlliflərin oxuculardan aldıqları heyranlıq və təşəkkür dolu qucaq-qucaq məktublar da artırdı. Evə yazdığı məktubunda peyğəmbərcəsinə «mənim barəmdə eşidərsiniz» deyən Mehdinin şərəfli adını duymayan qalmadı. Gerçək qəhrəmanın kino həyatı da uğurlu alınmış, dünyanın 25 dilinə tərcümə edilmiş, 100-dən çox ölkəsində nümayiş etdirilmişdir. «Azərbaycanfilm»dən sonra SSRİ-də kəşfiyyatçılar haqqında ssenarilər yazılmağa, hətta, çoxseriyalı filmlər çəkilməyə başlandı. (Məsələn, «Baharın on yeddi anı». «Uzaq sahillərdə» əllinci illərdə lentə alınmış ilk və yeganə ekran əsəridir ki, filmdə, ümumiyyətlə, Sovet İttifaqının adı çəkilmir» [6]. Mehdi azərbaycanlı oğlu, Azərbaycan qəhrəmanı kimi təqdim edilir. Mehdi Hüseynzadə Azərbaycan xalqının milli «relikviyasıdır» yanaşması ssenaridən, onun müəlliflərindən irəli gəlirdi.

İ.Qasımov ictimai xadim kimi xarici ölkələrdə səfərlərdə olmuş, təəssüratlarını qələmə almışdır. «Fransız qobeleni» və «İtaliya mozaikası» sənədli povestləri yazıçının köhnə qəhrəmanlarının taleyi, keçmiş və gələcək haqqında düşüncələridir. «Fransız qobeleni» yol qeydlərini yazıçı 1969-cu ildə yazmışdır. 1976-cı ildə İ.Qasımov «Ceyran» povestini qələmə alır. Yazıçının «Fransız qobeleni»ndəki səfərinin məqsədi olan araşdırmaları fakt olaraq bu povestdə öz əksini tapmışdır. «Ceyran» haradasa «Dairəni genişləndirin» dramının davamıdır. «Ceyran»ı, onun dumanlı qalan aqibətini unutmayan yazıçı 1980-ci ildə povesti teatr üçün yenidən işləyir. Səhnə variantı «Dinsizin tövbəsi» adlanır.

İ.Qasımov Marseldən, Parisdən sonra tərcüməçisi ilə birlikdə «isti bir iyun günündə «İtalya mozaikası»nın ardınca Romaya uçub gəlir. Burada yenidən qəhrəmanımızın sevimli obrazı ilə qarşılaşırıq. Yazıçı yaratdığı bütün qəhrəmanlarını sevir. Lakin «kefcil, şən, dəcəl» olan Mixaylo tək «Uzaq sahillərdə»nin deyil, bütünlükdə İ.Qasımov yaradıcılığının baş qəhrəmanıdır. «Uzaq sahillərdə» povestinin yazılmasından on beş il sonra yenidən bu mövzuya və

qəhrəmanının döyüşdüyü yerə qayıdan yazıçı üçün vacib idi ki, görsün «şöhrətli partizanın qəbri müasir Avropa peyzajı ilə necə bağlanır, faşizmə müqavimət göstərənlər arasında onun xatirəsi nə dərəcədə yaşayır, ona ehtiram və məhəbbət gənc nəslə necə aşılanır» [4, s.149] və s. Yazıçının səfəri xoş və məhsuldar olur. Yazıçının ünsiyyətdə olduğu adamlar Mixaylo haqqında elə xatirələr danışırlar ki, oxucunun qəlbi fəxrlə dolur, millətimiz və xalqımız adına qürurlanırsan.

## Nəticə / *Conclusion*

İ.Qasımov daim ictimai-siyasi prosesləri izləmiş, cəmiyyətin aktual problemlərinə, həyat hadisələrinə vətəndaş mövqeyini və münasibətini əsərləri vasitəsilə bildirmişdir. 1968-ci ildə Kremlin Sütunlu salonunda böyük Azərbaycan şairi və dövlət xadimi Molla Pənah «Vaqif haqqında söz» demiş, sonra bu çıxışını 1970-ci illərdə yazdığı məqalə və nitqlərinə əlavə edib kitab halına salaraq, Moskvada «Высокое назначение» adı altında çap etdirmişdi. Onun M.P.Vaqifin 250 illiyi münasibətilə etdiyi məruzə bu günümüzdən baxanda böyük əhəmiyyət daşıyır. Burada natiq kiçik Qafqazın yüksək zirvəsində yerləşən Şuşa qalasından, Vaqifin saraya dəvət olunub xanlığın idarəedilmə işlərinin ona tapşırılmasından, şairin ictimai xadim kimi Qarabağın çiçəklənməsi, digər Azərbaycan xanlıqları ilə yaxınlaşmasında gördüyü böyük işlərdən danışır. Qarabağ problem olmadığı kimi görünən zamanda da millətimizin ziyalılarının, fikir sahiblərinin diqqət mərkəzində olmuş, barıt çəlləyi olduğu respublika rəhbərliyinin yadından çıxmamışdır. Ümummilli lider Heydər Əliyevin Şuşada şairə məqbərə yaratmaq təşəbbüsü «bir tərəfdən, milli ədəbiyyata sevgisindən irəli gəlirdisə, digər tərəfdən, diyarın tarixini, əhalisinin etnik mənsubiyyətini bir daha göstərməklə bağlı idi» [1].

O, hansı mövzuda yazır-yazsın, istər tapdanmış yolla getsin, ya yeni cığır açsın, öz üslubunu, pozisiyasını, əqidəsini gözləyən bir sənətkardır. İ.Qasımovun yaradıcılıq axtarış və tapıntıları hər zaman diqqət çəkmiş, ədəbi tənqid tərəfindən yüksək qiymətləndirilmişdir. Gördüklərinə özünəməxsus münasibət, dəqiq müşahidələr, maraqlı qeydlər, detallara girmə və s. onu bir publisist kimi səciyyələndirir.

İmran Qasımov cəmi 63 il yaşasa da, çox iş görə bilmişdi. O, sovet ədəbiyyatının aparıcı simalarından olsa da, mövzuları dünyəvi və uzunömürlüdür. Ömür möhləti qısa, əsərlərinin ömrü uzun olan yazıçı bu gün də maraqla oxunur, qoyub getdiyi ədəbi irs dəyərini saxlayır, tədqiqata cəlb edilir. Sovet ədəbiyyatının son nümayəndələrindən olan İmran Qasımov gözəl əsərlərilə oxucularının qəlbində daim yaşayacaqdır.

## Ədəbiyyat / *References*


1. AZƏRTACazertag.az, 16.01.2021.
2. ANS «Onun böyük ürəyi» teleqraf.com, 28 yanvar 2016.
3. Arif Səfiyev. Mənəvi mövqeyin fəallığı. İmran Qasımov. Seçilmiş əsərləri, I cild. Bakı: Azərnəşr, 1988.
4. İmran Qasımov. Seçilmiş əsərləri, I cild. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1988.
5. İmran Qasımov, Həsən Seyidbəyli. İllər keçir. Gənclik, 1968.
6. Kamran Qasımov. Həsən Seyidbəylinin “Azərbaycan epopeyası”. “525-ci qəzet”, 01.01.2021.
7. Mehman Həsənli. Çingiz Aytmatov fenomeni və Azərbaycan. Bakı: Elm və təhsil, 2020.
8. Nurlana Əliyeva. “Xəzər üzərində şəfəq” – İmran Qasımov. Aqreqator. AZ. 26 noyabr, 2020.
9. Nikolay Abalkin. Odlu kürə. “Azərbaycan” jurnalı, 1977, 9.

10. Оксана Буланова. Имран Касумов и его вклад в историю Азербайджана – Azerhistoru. com, Из архива газеты ЭХО.
11. Zəkiyyə Qiyasbəyli. İmran Qasımov. Bakı: Yazıçı, 1983.

## Творчество Имрана Касумова и современный период

**Дилара Адилова**
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: adilova.60@bk.ru

**Резюме.** Статья посвящена творчеству Имрана Касумова. Наследие писателя было рассмотрено от начала до конца. Драматургическая деятельность Имрана Касумова тоже не осталась в стороне. Считается, что он неоднократно обращался к темам Каспия, нефти, морским буровым, трудовой активности нефтяников и их жизни. Произведения, касающиеся темы войны, тоже занимают место в рамках этой статьи. Была также освещена роль художественной публицистики и социальной деятельности И.Касумова в истории нашей литературы.

**Ключевые слова:** писатель, сценарий, нефть, пьеса, фильм